# Rehmetolelalemin Aleme Rehmet Gelir

— *faramarz-abdollahpur* · 21 Eylül 2024




Rəhməto'lelaləmin aləmə rəhmət gəlir
Cəhl butın sındıra nure mohəmməd gəlir

Gül cəmalından ənir çox bərəkətlər yerə
Yer yüzünə can verə hüsne həqiqət gəlir

Xulqı əzimilə bu aləmi məbhut edib
Çehreye bəşşaşilə kane şərafət gəlir

Kəlmeye tuhidilə aləmə izzət verib
Həq qapısın açmağa şər'u şəriət gəlir

Ayəte həqdən alır feyze kəlamın bütün
Bəzl eləyir həstiyə ədlu ədalət gəlir

Fəzle'vu ehsanilə dünyanı gülşən edə
Hekməte məåbudidən gohəre ismət gəlir

Roşən edə aləmi əqlilə burhanilə

Saleh əməl etməgə gör necə höccət gəlir

Bir ideal zindegi aləmə payə qoya
Həq kəlamınnan alır ətre nobovvət gəlir

Yoxsulu biçarəni bəndidən azad edə
Kafirə şiddət verə hökme resalət gəlir

Gör necə məhbubidir aləmə bu sövgülü
Gəlsə mübarək adı ruhə təravət gəlir

Mən yazıqı məst edip hüsnili əxlaqilə
Sən belə fikr et mudam badeye cənnət gəlir

Vardı gözəl bir səlam həq tərəfindən təmam
Səlle əla əhmədo ale mohəmməd gəlir